«DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR»

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı və uçot idarəsi tərəfindən

İdarə rəisi: Lalə Cəfərova

*Bu sənəd elektron imza vasitəsilə imzalanmışdır*

"TƏSDİQ EDİLMİŞDİR"

"PAŞA Həyat Sığorta" ASC-nin
Səhmdarı
"PAŞA Holding" MMC-nin adından

Etibarnamə əsasında səlahiyyətli şəxs
- Baş İcraçı Direktorunun müavini
Səidə Baxşiyeva

"PAŞA Həyat Sığorta" ASC-nin
Səhmdarı
"PAŞA Maliyyə Holdinqi" MMC-nin

Baş İcraçı Direktoru
Fərid Məmmədov

# "PAŞA Həyat Sığorta"

## AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN

## NİZAMNAMƏSİ

*(altıncı redaksiyada)*

## *1. ÜMUMİ MÜDDƏALAR*

1.1. ***"PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti*** (bundan sonra – "Cəmiyyət" adlandırılacaq), müstəqil təsərrüfat subyekti olaraq, öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra – "Qanun" adlandırılacaq), Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra – "Mərkəzi Bank" adlandırılacaq) tərəfindən təsdiq edilmiş "Sığortaçılarda korporativ idarəetmə Standartları" (bundan sonra – "Standartlar" adlandırılacaq) və Azərbaycan Respublikasının qüvvədə olan digər qanunvericilik aktları və hazırkı Nizamnaməyə əsasən həyata keçirir.

1.2. Cəmiyyətin təşkilati-hüquqi forması: ***Açıq Səhmdar Cəmiyyəti.***

1.3. Cəmiyyətin tam adı: ***"PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti.***

1.4. Cəmiyyətin qısaldılmış adı: ***"PAŞA Həyat" ASC***

1.5. Cəmiyyətin ingilis dilindəki tam adı: ***"PASHA Life Insurance" Open Joint Stock Company***.

1.6. Cəmiyyətin ingilis dilindəki qısaldılmış adı: ***"PASHA Life" OJSC***.

1.7. Cəmiyyət 24.11.2010-cu il tarixdə 1401876531 qeydiyyat nömrəsi (VÖEN) ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

1.8. Bu Nizamnamə ***Cəmiyyətin altıncı redaksiyada Nizamnaməsidir.***

1.9. Cəmiyyət əmlaka malikdir və öz öhdəlikləri üçün bu əmlakla cavabdehlik daşıyır. Cəmiyyətin öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və cavabdeh olmaq və qanunla qadağan olunmayan Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət növləri ilə məşğul olmaq üçün zəruri mülki hüquqlara malik olmaq və müvafiq vəzifələri daşımaq hüququ vardır. Cəmiyyət müstəqil balansa, girdə möhürə, künc ştampına, firma işarəsinə (emblemə), əmtəə nişanına (loqotipə), bank hesablarına və digər rekvizitlərə malikdir.

1.10. Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, L.Tolstoy küçəsi 170.

## *2. CƏMİYYƏTİN MƏQSƏDİ*

2.1. Cəmiyyətin yaradılmasının və fəaliyyətinin həyata keçirilməsinin əsas məqsədi həyat sığortası sahəsində sığorta fəaliyyətinin həyata keçirilməsi, yerli və xarici hüquqi və fiziki şəxslərə sığorta xidmətlərinin göstərilməsidir.

## *3. CƏMİYYƏTİN FƏALİYYƏT NÖVLƏRİ*

3.1. Cəmiyyət verilmiş lisenziya əsasında həyat sığortası sahəsində sığorta risklərinin qəbul edilməsi, ötürülməsi, yerləşdirilməsi və ya bölüşdürülməsi üzrə sığorta müqavilələrinin bağlanması və yerinə yetirilməsi ilə əlaqədar olan fəaliyyət göstərir.

3.2. Cəmiyyət əsas fəaliyyətindən başqa yalnız aşağıdakı fəaliyyət növləri ilə məşğul ola bilər:

- 3.2.1. Mütəxəssislərin ixtisasının artırılması məqsədi ilə sığorta bazarının peşəkar iştirakçıları üçün təlimlərin təşkili və keçirilməsi;
- 3.2.2. Sığortaya və əlaqəli fəaliyyət sahələrinə aid xüsusi ədəbiyyatın müxtəlif növ məlumat daşıyıcılarında hazırlanması və satışı;
- 3.2.3. İnformasiya texnologiyaları əsasında sığorta ilə bağlı xüsusi proqram təminatının hazırlanması və satışı;
- 3.2.4. Sığorta ilə bağlı məsələlər, o cümlədən zərərlərin qarşısının alınması üzrə məsləhət xidmətlərinin göstərilməsi;
- 3.2.5. Müştərilərinin sənədlərinin hüquqi ekspertizasının, habelə zərərlərin tənzimlənməsi zamanı hüquqi ekspertizanın keçirilməsi;
- 3.2.6. Sığorta risklərinin qiymətləndirilməsi, sığorta hadisələrinin araşdırılması, həmçinin zərərlərin tənzimlənməsi üzrə hüquqi, texniki və təşkilati yardımın göstərilməsi;
- 3.2.7. Azərbaycan Respublikasının qanunvericiliyi ilə sığorta şirkətlərinə icazə verilən digər fəaliyyətlər.

## 4. CƏMİYYƏTİN NİZAMNAMƏ KAPİTALI

4.1. Cəmiyyətin nizamnamə kapitalının miqdarı 40.250.000 (qırx milyon iki yüz əlli min) manat, hər birinin nominal dəyəri 5.750 (beş min yeddi yüz əlli) manat təşkil edən 7.000 (yeddi min) ədəd adi adlı sənədsiz səhmlərdən ibarətdir. Cəmiyyətin səhmdarları və onların nizamnamə kapitalındakı payı:

- "PAŞA Maliyyə Holdinqi" MMC (VÖEN:1407506561, qeydiyyat tarixi: 30.12.2025, qeydiyyat ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti, ev 153) – 6.993 (altı min doqquz yüz doxsan üç) ədəd səhm, 40.209.750 (qırx milyon iki yüz doqquz min yeddi yüz əlli) manat, 99.9%;
- "PAŞA Holding" MMC (VÖEN:1401007871, qeydiyyat tarixi: 01.11.2006, qeydiyyat ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti, ev 153) – 7 (yeddi) ədəd səhm, 40.250 (qırx min iki yüz əlli) manat, 0.1%.

4.2. Cəmiyyətin nizamnamə kapitalı onun səhmdarları tərəfindən əldə edilmiş səhmlərinin nominal dəyərindən təşkil olunur.

4.3. Cəmiyyətin nizamnamə kapitalına qoyuluşların formaları Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər qanunvericilik aktları ilə müəyyən edilir. Cəmiyyətin nizamnamə kapitalına qoyuluşlar pul vəsaitləri, tam ödənilmiş qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar ola bilər.

4.4. Cəmiyyətin nizamnamə kapitalının formalaşdırılması üçün kredit və ya borc şəklində cəlb olunmuş pul vəsaitindən, girov götürülmüş və ya qanunsuz yolla əldə edilmiş əmlakdan, habelə dövlət və bələdiyyə büdcələrinin, büdcədənkənar fondların pul vəsaitlərindən və dövlət hakimiyyəti orqanlarının sərəncamında olan digər vəsaitdən istifadə edilə bilməz.

4.5. Cəmiyyətin nizamnamə kapitalı onun kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir və o, Mərkəzi Bank tərəfindən müəyyənləşdirilmiş miqdardan az ola bilməz.

4.6. Hər növbəti maliyyə ili başa çatarkən Cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa, Cəmiyyət öz nizamnamə kapitalının azaldığını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur. Sahəvi qanunlarda göstərilən hallar istisna olmaqla, Cəmiyyətin göstərilən aktivlərinin dəyəri nizamnamə kapitalının Mərkəzi Bank tərəfindən müəyyənləşdirilmiş minimum miqdarından az olarsa, Cəmiyyət ləğv edilməlidir.

4.7. Cəmiyyətin səhmdarının mayasının pulla qiymətləndirilməsi Cəmiyyətin səhmdarları arasında razılaşmaya əsasən yerinə yetirilir və müstəqil ekspert yoxlamasından (auditdən) keçirilməlidir.

4.8. Cəmiyyətin səhmlərinin, istiqrazlarının və digər növ qiymətli kağızlarının buraxılması, yerləşdirilməsi, dövriyyəsi və ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsi, həmin Məcəlləyə müvafiq olaraq qəbul edilmiş digər normativ hüquqi aktlara və Cəmiyyətin Nizamnaməsinə müvafiq olaraq həyata keçirilir.

4.9. Cəmiyyətin qiymətli kağızlarının birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, həmin Məcəlləyə müvafiq olaraq qəbul edilmiş digər normativ hüquqi aktlara və Cəmiyyətin Nizamnaməsinə müvafiq olaraq həyata keçirilir.

4.10. Cəmiyyətin nizamnamə kapitalı Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən səhmlərin nominal dəyərini artırmaq və ya əlavə səhmlər buraxmaq yolu ilə artırıla bilər.

4.11. Cəmiyyətin səhmlərinin nominal dəyərinin artırılması və əlavə səhmlərin buraxılması qaydaları qiymətli kağızlar bazarını tənzimləyən müvafiq tənzimləyici və nəzarətedici orqan tərəfindən müəyyən edilir.

4.12. Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən, Cəmiyyətin nizamnamə kapitalı səhmlərin nominal dəyərini azaltmaq və ya bir hissəsini satın alıb onların ümumi miqdarını azaltmaq yolu ilə azaldıla bilər.

4.13. Cəmiyyətin nizamnamə kapitalının azaldılması haqqında Səhmdarların Ümumi Yığıncağının qərarı qəbul edildiyi gündən 15 (on beş) təqvim günü müddətində Cəmiyyət kreditorlara bu barədə yazılı surətdə məlumat verməlidir. Cəmiyyətin kreditorları məlumatı aldıqdan sonra 30 (otuz) təqvim günü ərzində Cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya onlara xitam verilməsini və çəkdikləri zərərin ödənilməsini tələb edə bilərlər.

4.14. Cəmiyyətin səhmdarları onun öhdəlikləri üçün cavabdeh deyildirlər və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar.
4.15. Cəmiyyətin yaradılması ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər yaranmış öhdəliklərə görə Cəmiyyətin təsisçiləri birgə məsuliyyət daşıyırlar.
4.16. Cəmiyyət öz səhmdarlarına bu Nizamnamə, ona edilən əlavə və dəyişikliklər ilə tanış olmaq imkanı yaratmalıdır. Səhmdarın tələbi ilə Nizamnamənin surəti ona verilməlidir.

## *5. CƏMİYYƏTİN SƏHMDARLARI, ONLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ*

5.1. Cəmiyyətin səhmdarı Cəmiyyətin bir və ya daha çox sayda səhmlərinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxsdir.
5.2. Bir neçə şəxsə bir səhm mənsub olduğu halda, onlar Cəmiyyətə münasibətdə bir səhmdar kimi tanınırlar və öz hüquqlarını nümayəndə vasitəsilə həyata keçirə bilərlər.
5.3. Cəmiyyətin adi səhminin mülkiyyətçisi olan səhmdarının bu Nizamnamə ilə müəyyən edilmiş qaydada aşağıdakı hüquqları vardır:
   5.3.1. Cəmiyyətin idarə edilməsində Azərbayan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericiliklə və bu Nizamnamə ilə müəyyən edilmiş qaydada iştirak etmək, onu idarə etmək və icra orqanlarına seçmək və seçilmək;
   5.3.2. Bu Nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada, Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;
   5.3.3. Səhmdarların Ümumi Yığıncağının çağırılmasını tələb etmək;
   5.3.4. Səhmdarların Ümumi Yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;
   5.3.5. Səhmdarların Ümumi Yığıncağında səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
   5.3.6. Cəmiyyətin fəaliyyətinin Audit Komitəsi və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
   5.3.7. Cəmiyyətin xalis mənfəətindən dividend almaq;
   5.3.8. Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
   5.3.9. İdarə Heyətinin və Direktorlar Şurasının üzvlərinin səhlənkarlığına və səhmdar cəmiyyətə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;
   5.3.10. Cəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək;
   5.3.11. Bağlanmış əqd nəticəsində cəmiyyətə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;
   5.3.12. Bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq;
   5.3.13. Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.
5.4. Hər bir səhmdar malik olduğu səsli səhmlərin sayına görə səs hüququna malikdir.
5.5. Cəmiyyətin səhmləri səhmdar olan fiziki şəxslərin vərəsələrinə və ya hüquqi şəxslərin hüquqi varislərinə Cəmiyyətin qalan səhmdarlarının razılığı olmadan keçir.
5.6. Cəmiyyətin səhmdarının vəzifələri aşağıdakılardır:
   5.6.1. Azərbaycan Respublikasının qanunvericilik aktları və (və ya) bu Nizamnaməyə əsasən kommersiya sirri və ya məxfi hesab olunan məlumatları üçüncü şəxslərə açıqlamamaq;
   5.6.2. Səhmdarların reyestrində ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə reyestrsaxlayıcısına 10 (on) təqvim günü ərzində yazılı bildiriş vermək;
   5.6.3. Azərbaycan Respublikasının qanunvericilik aktları və bu Nizamnamə ilə müəyyən edilmiş başqa vəzifələri yerinə yetirmək.
5.7. Səhm bir neçə şəxsin ümumi birgə mülkiyyətində olduğu halda, Səhmdarların Ümumi Yığıncağında səsvermə səlahiyyəti onun mülkiyyətçilərinin birinə və ya onların ümumi nümayəndəsinə qanunvericilikdə müəyyən olunmuş qaydada həvalə edilir.

5.8. Səhmdar cəmiyyətinin səhmdarlarının hüquqlarının müdafiəsi Mülki Məcəllə, Qanuna, digər qanunlar və normativ hüquqi aktlara uyğun olaraq təmin edilir.

## *6. CƏMİYYƏTİN YERLƏŞDİRİLMİŞ SƏHMLƏRİNİN GERİ ALINMASI*

6.1. Cəmiyyət tərəfindən yerləşdirilmiş səhmlərin geri alınması Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallarda səhmdarların tələbi ilə həyata keçirilir.

6.2. Cəmiyyət nizamnamə kapitalının miqdarını və səhmlərin sayını azaltmaq məqsədilə, Səhmdarların Ümumi Yığıncağının qərarı əsasında, əvvəl yerləşdirilmiş səhmlərinin bir hissəsini geri ala bilər. Bu zaman dövriyyədə qalan səhmlərin ümumi nominal dəyəri qanunvericiliklə nizamnamə kapitalı üçün müəyyən edilmiş məbləğin minimal həddindən aşağı olmamalıdır.

6.3. Səhmlərin geri alınması səhm mülkiyyətçilərinin razılığı ilə, səhmlərin geri alınması *fond birjası* vasitəsi ilə həyata keçirildiyi hal istisna olunmaqla, ümumi yığıncaqda səhmin müəyyən olunmuş qiyməti ilə həyata keçirilir.

6.4. Aşağıdakı hallarda Cəmiyyətin səhmlərinin geri alınması qərarı qəbul edilə bilməz:
- Cəmiyyətin nizamnamə kapitalı tam formalaşmadıqda;
- Cəmiyyətin ləğvi barədə qərar qəbul edildikdə;
- Səhmdarların tələbi əsasında onların səhmlərinin geri alınması başa çatmadıqda.

6.5. Geri alınmış səhmlər səsvermə zamanı nəzərə alınmır və onlar üzrə dividendlər hesablanmır. Bu səhmlər geri satın alındığı tarixdən bir il müddətində ya özgəninkiləşdirilməli, ya da Səhmdarların Ümumi Yığıncağının qərarı ilə dövriyyədən çıxarılmalıdır.

## *7. CƏMİYYƏTİN SƏHMDARLARININ REYESTRİ*

7.1. Cəmiyyət dövlət qeydiyyatına alındığı tarixdən 30 (otuz) təqvim günündən gec olmayaraq səhmdarlarının reyestrinin aparılmasını təmin etməlidir.

7.2. Cəmiyyətin səhmdarlarının reyestri mərkəzi depozitar tərəfindən aparılmalıdır.

7.3. Səhmdar ildə bir dəfə İdarə Heyətindən səhmdarların reyestrinin ona təqdim edilməsini tələb edə bilər. Bu halda İdarə Heyəti səhmdarların reyestrini 5 (beş) gün ərzində həmin səhmdara təqdim etməlidir.

## *8. CƏMİYYƏTİN İDARƏETMƏ ORQANLARI*

8.1. **<u>Səhmdarların Ümumi Yığıncağı:</u>**

8.1.1. Cəmiyyətin ali idarəetmə orqanı onun səhmdarlarının Ümumi Yığıncağıdır. Səhmdarların Ümumi Yığıncağı növbəti və növbədənkənar ola bilər.

8.1.2. Səhmdarların növbəti Ümumi Yığıncağı (Səhmdarların illik Ümumi Yığıncağı) ildə bir dəfədən az olmayaraq çağırılmalıdır.

8.1.3. Səhmdarların illik Ümumi Yığıncağı maliyyə ili bitdikdən sonra 6 (altı) aydan gec olmayaraq, Cəmiyyətin illik maliyyə hesabatının yoxlanılması üçün əmlak mənafeləri ilə Cəmiyyətə və ya onun səhmdarlarına bağlı olmayan cəlb edilmiş peşəkar auditorun rəyi alındıqdan sonra Direktorlar Şurası tərəfindən çağırılır.

8.1.4. Səhmdarların Ümumi Yığıncağının çağırılmasına 45 (qırx beş) gün qalmış yığıncağın çağırılması barədə media ilə məlumat verilməli, habelə səhmdarlara və ya nominal saxlayıcılara bu barədə yazılı bildiriş göndərilməlidir. Nominal saxlayıcı həmin bildirişin səhmdara çatdırılmasını təmin etməlidir.

8.1.5. Səhmdarların Ümumi Yığıncağının çağırılması barədə bildirişdə aşağıdakılar göstərilməlidir:
- Cəmiyyətin adı və olduğu yer;
- Səhmdarların Ümumi Yığıncağının keçirilmə tarixi, vaxtı və ünvanı;
- Səhmdarların Ümumi Yığıncağının gündəliyi;
- Səhmdarların Ümumi Yığıncağının gündəliyi üzrə materiallarla tanış olunma qaydası.

8.1.6. Səsvermə hüququna malik olan səhmdarların yekdil razılığı ilə Səhmdarların Ümumi Yığıncağının iclası gündəliyə daxil edilməmiş məsələləri də müzakirə edə və onlara dair qərarlar qəbul edə bilər.

8.1.7. Səhmdarların növbədənkənar Ümumi Yığıncağı Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada və müddətdə Direktorlar Şurasının öz təşəbbüsü ilə və ya Audit Komitəsinin, yaxud səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə İdarə Heyəti tərəfindən, həmçinin müvafiq hallarda Audit Komitəsinin tələbi ilə Direktorlar Şurası tərəfindən çağırılır.

8.1.8. Səhmdarların növbədənkənar Ümumi Yığıncağının çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməli və həmin məsələlər yığıncağın gündəliyinə salınmalıdır.

8.1.9. Səhmdarların növbədənkənar Ümumi Yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən İdarə Heyəti aşağıdakıları yerinə yetirməlidir:

- 8.1.9.1. 3 (üç) iş günü müddətində Ümumi Yığıncağın vaxtını və yerini təyin edib, bu barədə mediada elan verməlidir;
- 8.1.9.2. 5 (beş) iş günü müddətində Ümumi Yığıncağın çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir;
- 8.1.9.3. 30 (otuz) gündən tez, 45 (qırx beş) gündən gec olmayaraq, Ümumi Yığıncağın keçirilməsini təmin etməlidir.

8.1.10. Cəmiyyətin yeganə səhmdarı olduğu təqdirdə Səhmdarların Ümumi Yığıncağına aid səlahiyyətlər yeganə səhmdar tərəfindən həyata keçirilir və Səhmdarların Ümumi Yığıncağına aid qərarlar təkbaşına olaraq yeganə səhmdar tərəfindən qəbul edilir.

8.1.11. **Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:**

- 8.1.11.1. Cəmiyyətin Nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- 8.1.11.2. Digər hüquqi şəxslərin nizamnamə kapitalına investisiya qoyulması, o cümlədən başqa sığortaçının səhmlərinin alınması, törəmə cəmiyyətlərin təsis edilməsi və fəaliyyətlərinə xitam verilməsi barədə qərarlar qəbul etmək;
- 8.1.11.3. Cəmiyyətin qiymətli kağızlarının, o cümlədən səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək, Cəmiyyətin kapitalının artırılması və ya azaldılması, xalis mənfəət hesabına ehtiyatların formalaşdırılması barədə qərarlar qəbul etmək;
- 8.1.11.4. Qanunun VIII Fəslində nəzərdə tutulmuş əsaslı dəyişikliklər barədə qərarlar qəbul etmək;
- 8.1.11.5. Cəmiyyətin büdcəsini təsdiq və qəbul etmək;
- 8.1.11.6. Direktorlar Şurasının və İdarə Heyətinin əsasnamələrini təsdiq etmək;
- 8.1.11.7. Direktorlar Şurasından, İdarə Heyətindən və Audit Komitəsindən hesabatlar almaq;
- 8.1.11.8. Rəhbər işçilərin Cəmiyyətin adından öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin Cəmiyyətin digər əməkdaşlarına verilməsi hədlərini müəyyənləşdirmək;
- 8.1.11.9. Cəmiyyətin müstəqil auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş maliyyə hesabatlarını təsdiq etmək;
- 8.1.11.10. Cəmiyyətin Direktorlar Şurasının üzvlərini seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- 8.1.11.11. Cəmiyyətin illik hesabatlarını, maliyyə hesabatlarını, mənfəət və zərər hesablarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;
- 8.1.11.12. Xüsusi əhəmiyyətli əqdin (Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdin) bağlanılması barədə qərar qəbul etmək;
- 8.1.11.13. Cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;
- 8.1.11.14. Cəmiyyətin pul olmayan əmlakının dəyərini müəyyənləşdirmək;
- 8.1.11.15. Direktorlar Şurasının üzvlərinin və Direktorlar Şurasının komitələrinin müstəqil kənar üzvləri üçün mükafat məbləğlərini müəyyən etmək və mükafatlandırılmaları barədə qərar qəbul etmək;

8.1.11.16. Biznes modelinin dəyişilməsi, fəaliyyətin genişlənməsi, maliyyə sağlamlaşdırması və s. ilə bağlı olaraq zərərlə fəaliyyət göstərilməsi zamanı mükafatlandırma siyasətində xüsusi kateqoriyaya aid olan işçilər üzrə dəyişən mükafatın müəyyən edilməsi və verilməsini nəzərdə tutan qərarlar qəbul etmək;

8.1.12. Aidiyyəti (əlaqəli) şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri Cəmiyyətin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etdikdə, həmin əqd Cəmiyyət tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və Cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağının sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə bağlanılır. Həmin əqdə münasibətdə aidiyyəti (əlaqəli) şəxs olan səhmdar məsələ ilə əlaqədar olan səsvermədə iştirak edə bilməz.

8.1.13. Qanunvericiliyin tələbləri nəzərə alınmaqla, Səhmdarların Ümumi Yığıncağı özünə aid edilən səlahiyyətləri Direktorlar Şurasına, Audit Komitəsinə və İdarə Heyətinə ötürə bilər.

8.1.14. Bu Nizamnamə ilə Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlərlə yanaşı Səhmdarların Ümumi Yığıncağı Nizamnaməyə əsasən hər hansı səlahiyyətin digər orqanlara ötürülməsindən asılı olmayaraq (qanunvericiliklə bu səlahiyyətlərin birbaşa olaraq digər idarəetmə orqanlarına həvalə edilməsi halları istisna olmaqla), Cəmiyyətin fəaliyyəti ilə əlaqədar istənilən məsələni müzakirə edə və qərarlar qəbul edə bilər.

8.1.15. Səhmdarların Ümumi Yığıncağı səsli səhmlərin 60 (altmış) faizinin mülkiyyətçiləri iştirak etdikdə səlahiyyətlidir.

8.1.16. Səhmdarların Ümumi Yığıncağında yetərsay olmadıqda, Səhmdarların Ümumi Yığıncağı bu Nizamnamənin 8.1.9-cu bəndi ilə müəyyən edilmiş qaydada yenidən çağırılmalıdır. Bu zaman Səhmdarların Ümumi Yığıncağının gündəliyi dəyişdirilməməlidir. Yenidən çağırılan Səhmdarların Ümumi Yığıncağı səsli səhmlərin 40 (qırx) faizinin mülkiyyətçiləri iştirak etdikdə səlahiyyətlidir.

8.1.17. Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, Səhmdarların Ümumi Yığıncağı bu Nizamnamənin 8.1.9-cu bəndi ilə müəyyən edilmiş qaydada, gündəliyi dəyişdirilmədən təkrarən çağırılmalıdır. Təkrarən çağırılan Səhmdarların Ümumi Yığıncağı səsli səhmlərin 25 (iyirmi beş) faizinin mülkiyyətçiləri iştirak etdikdə səlahiyyətlidir.

8.1.18. Bu Nizamnamənin 8.1.17-ci bəndinə əsasən, təkrarən çağırılan Səhmdarların Ümumi Yığıncağın keçirilməsi üçün yetərsay təmin olunmadıqda, Cəmiyyət qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanına məlumat verərək, yetərsaydan asılı olmadan Səhmdarların Ümumi Yığıncağının qərarı ilə və ya Mərkəzi Bankın iddiası əsasında məhkəmənin qərarı ilə ləğv edilə bilər. Səhmdarların Cəmiyyətin ləğv edilməsi haqqında Səhmdarların Ümumi Yığıncağının qərarından məhkəməyə şikayət etmək hüququ vardır.

8.1.19. Səhmdarların Ümumi Yığıncağında səsvermə «bir səsli səhm - bir səsdir» prinsipi əsasında həyata keçirilir.

8.1.20. Səhmdar Səhmdarların Ümumi Yığıncağında iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirir. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

8.1.21. Səhm bir neçə şəxsin ümumi birgə mülkiyyətində olduğu halda, Səhmdarların Ümumi Yığıncağında səsvermə səlahiyyəti onun mülkiyyətçilərinin birinə və ya onların ümumi nümayəndəsinə qanunvericilikdə müəyyən olunmuş qaydada həvalə edilir.

8.1.22. Səhmdar Ümumi Yığıncağın gündəliyində olan məsələyə münasibətini dəqiq və şərtsiz bildirməklə (lehinə, əleyhinə, bitərəf), imzası qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və sair) təsdiq edilməklə, yazılı sənəd vasitəsilə səsvermədə qiyabi iştirak edə bilər.

8.1.23. Sığortaçının Səhmdarlarının Ümumi Yığıncağının iclaslarında səhmdarların səsvermədə iştirakının və qərar qəbul edilməsi qaydasının Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulan hallarından başqa, Cəmiyyətin yenidən təşkili, ləğvi, Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar, həmçinin Direktorlar Şurası üzvlərinin vəzifəyə seçilməsi və vəzifədən azad edilməsi, başqa sığortaçının səhmlərinin alınması, törəmə cəmiyyətlərin təsis edilməsi məsələləri üzrə qərarlar

Səhmdarların Ümumi Yığıncağında təmsil edilən səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu, digər məsələlər barədə qərarlar isə sadə səs çoxluğu ilə qəbul edilir.

8.1.24. Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilmiş qərarlar 15 (on beş) təqvim günündən gec olmayaraq səhmdarlara elan edilməlidir.

8.1.25. Səhmdarların Ümumi Yığıncağına səhmdarların səs çoxluğu ilə seçilən sədr sədrlik edir.

8.1.26. Səhmdarların Ümumi Yığıncağının bütün iclasları protokollaşdırılır, yığıncaq bitdikdən sonra 3 (üç) iş günündən gec olmayaraq iki nüsxədə tərtib olunur, Səhmdarların Ümumi Yığıncağının sədri və katibi tərəfindən imzalandıqdan sonra Cəmiyyətin möhürü ilə təsdiq edilir və hər il üzrə uçotu aparılır.

8.1.27. Cəmiyyətin səhmdarları və ya onların səlahiyyətli nümayəndələri iclasın protokolları ilə tanış ola bilərlər.

8.1.28. Səhmdarların Ümumi Yığıncağının protokolunda aşağıdakılar göstərilir:

- Ümumi Yığıncağın keçirilmə vaxtı və yeri;
- Ümumi Yığıncağın gündəliyi;
- Ümumi Yığıncağın iştirakçılarının səsli səhmlərinin sayı;
- İştirak edən səsvermə hüququna malik olan səhmdarların sayı;
- Çıxışların xülasəsi;
- Səsə qoyulan hər bir məsələ üzrə səsvermənin nəticələri;
- Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilmiş qərarın dəqiq və səlis ifadə olunmuş mətni.

8.1.29. Səhmdarın tələbi ilə protokolun surəti ona təqdim edilməlidir.

8.1.30. Səhmdarların Ümumi Yığıncağının qərarları Cəmiyyətin bütün orqanları tərəfindən qeyd-şərtsiz icra edilir.

8.1.31. Səhmdarların Ümumi Yığıncağının qərarından səhmdar məhkəməyə şikayət edə bilər.

8.2. **<u>Direktorlar Şurası:</u>**

8.2.1. Direktorlar Şurası 3 (üç) nəfərdən az olmayan tək sayda fiziki şəxs olan üzvlərdən ibarətdir. Bu üzvlərdən ən azı biri bu Nizamnamənin 8.2.3-cü bəndinə uyğun olaraq seçilən müstəqil şəxs olmalıdır.

8.2.2. Direktorlar Şurasının üzvləri 3 (üç) ildən çox olmayan müddətə seçilirlər. Direktorlar Şurasının üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər.

8.2.3. Cəmiyyətin və ya onunla aidiyyəti (əlaqəli) şəxsin idarəetmə orqanının üzvü olmayan, həmçinin özü və ya arvadı (əri) Cəmiyyətin və ya onunla aidiyyəti (əlaqəli) şəxsin hər hansı səhminə malik olmayan, eləcə də qanunvericilikdə müəyyən edilmiş digər meyarlara uyğun olan şəxs Direktorlar Şurasının müstəqil üzvü seçilə bilər.

8.2.4. Direktorlar Şurasının sədri Səhmdarların Ümumi Yığıncağı tərəfindən onun üzvləri sırasından seçilir. Direktorlar Şurasının üzvləri Cəmiyyətin digər idarəetmə orqanında (Audit Komitəsi istisna olmaqla) vəzifə tuta bilməz. Direktorlar Şurasının üzvü (Cəmiyyətin səhmdarı olan Direktorlar Şurası üzvü istisna olmaqla) onun tərəfindən yaradılmış komitələrin üzvü ola bilər.

8.2.5. Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulanlardan başqa, aşağıdakı şəxslər də Direktorlar Şurasının üzvü ola bilməzlər:

- bir sığortaçının digərində əhəmiyyətli nəzarətə və ya mühüm iştirak payına malik olduğu və ya sığortaçıların hər birinin səhmlərinin 50 (əlli) faizi və ya daha çox hissəsinin eyni səhmdarlara məxsus olduğu hallarda, həyat sığortası sahəsində fəaliyyət göstərən sığortaçının Direktorlar Şurası üzvünün yalnız qeyri-həyat sığortası sahəsində fəaliyyət göstərən həmin sığortaçılardan birində, qeyri-həyat sığortası sahəsində fəaliyyət göstərən sığortaçının Direktorlar Şurası üzvünün isə yalnız həyat sığortası sahəsində fəaliyyət göstərən həmin sığortaçılardan birində Direktorlar Şurasının üzvü olmasıistisna olmaqla, digər sığortaçının idarəetmə orqanının üzvləri;

- sığortaçı olmayan üç (müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunduqda beş) və ya daha çox hüquqi şəxsin idarəetmə orqanının üzvü olan şəxslər.

8.2.6. Bu Nizamnamənin 8.2.4-cü bəndində göstərilən şəxslər Səhmdarların Ümumi Yığıncağının qərarı ilə Direktorlar Şurasının üzvü vəzifəsindən azad edilməlidirlər.

8.2.7. Direktorlar Şurası iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

8.2.8. Direktorlar Şurasının qərarları iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Direktorlar Şurasının iclaslarında üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir.

8.2.9. Mərkəzi Bank nəzarət tədbirləri çərçivəsində Cəmiyyətin Direktorlar Şurasının iclaslarının, o cümlədən növbədənkənar iclaslarının keçirilməsini tələb etmək, həmin tələb yerinə yetirilmədikdə səlahiyyətli idarəetmə orqanlarının və daxili komitələrinin iclaslarını çağıra və (və ya) həmin iclaslarda müşahidəçi qismində iştirak edə bilər.

8.2.10. Hazırkı Nizamnamədə qeyd edilməyən, Direktorlar Şurasının fəaliyyətinin tənzimlənməsi ilə bağlı bütün digər məsələlər müfəssəl şəkildə onun əsasnaməsi ilə müəyyən edilir və tənzimlənir.

8.2.11. **Direktorlar Şurasının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:**

8.2.11.1. Cəmiyyətin idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək;

8.2.11.2. Öz üzvləri sırasından komitələr təşkil etmək, öz səlahiyyətlərinin bir hissəsini onlara həvalə etmək, həmin komitələrin əsasnamələrini təsdiq etmək;

8.2.11.3. İdarə Heyəti, Audit Komitəsi və öz üzvlərindən, Cəmiyyətin əməkdaşlarından, habelə Cəmiyyətin əsas təsisçisinin (səhmdarının) nümayəndələrindən və müvafiq bilik və təcrübəyə malik kənar üzvlərdən ibarət tərkibdə ekspert qruplarını təşkil etmək, həmin ekspert qruplarının əsasnamələrini təsdiq etmək;

8.2.11.4. Öz funksiyalarını yerinə yetirmək üçün lazım olan şifahi və yazılı hesabatların, eləcə də hər hansı digər sənədlərin İdarə Heyəti, Audit Komitəsi, Riskləri İdarəetmə Komitəsi, digər vəzifəli şəxslər, komitələr və ekspert qrupları tərəfindən təqdim edilməsini tələb etmək;

8.2.11.5. Səhmdarların Ümumi Yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;

8.2.11.6. Bildirişlər göndərmək yolu ilə Səhmdarların Ümumi Yığıncağının iclaslarını çağırmaq və səhmdarların, İdarə Heyətinin,Audit Komitəsinin tələbi ilə çağırılan növbədənkənar iclaslar və bu Nizamnamənin 8.2.9-cu bəndində nəzərdə tutulan iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini müəyyən etmək;

8.2.11.7. İdarə Heyətinin, Audit Komitəsinin, Riskləri İdarəetmə Komitəsinin, komitələrin və ekspert qruplarının iclaslarını çağırmaq;

8.2.11.8. Direktorlar Şurasının üzvlərindən başqa, Cəmiyyətin İdarə Heyətinin üzvlərini, o cümlədən sədrini və onun müavinlərini seçmək, habelə Cəmiyyətin digər rəhbər işçilərini vəzifəyə təyin etmək, onların səlahiyyətlərinə xitam vermək və onların əmək haqlarının miqdarını müəyyən etmək;

8.2.11.9. Daxili audit xidmətinin əsasnaməsini və onun saxlanılması xərclərini təsdiq etmək, daxili auditorların vəzifəyə təyin edilməsi, əmək haqqı məbləğləri, vəzifədə irəliləyişi, işdən kənarlaşdırılması və ya azad olunması barədə qərar qəbul etmək;

8.2.11.10. Riskləri İdarəetmə Komitəsinin (daxili audit funksiyası üzrə Audit Komitəsinin) təqdimatı ilə nəzarət funksiyalarının məsul şəxslərini və nəzarət funksiyalarını həyata keçirən struktur bölmələrin rəhbərlərini vəzifəyə təyin etmək və vəzifədən azad etmək;

8.2.11.11. Korporativ katibi vəzifəyə təyin etmək və vəzifədən azad etmək;

8.2.11.12. Korporativ katibin səmərəli fəaliyyətini təmin etmək məqsədilə müvafiq qanunvericilik aktında nəzərdə tutulmuş məsələlər barədə qərar qəbul etmək;

8.2.11.13. Cəmiyyətin təsdiq edilmiş daxili audit planında nəzərdə tutulmamış daxili audit yoxlamasının keçirilməsi barədə öz təşəbbüsü ilə, habelə Cəmiyyətin səhmlərinin

10 (on) faizindən artıq hissəsinə malik olan səhmdarların tələbi və ya İdarə Heyətinin təklifi əsasında qərar vermək;

8.2.11.14. İdarə Heyətinin hər hansı bir üzvünün fəaliyyətini qeyri-qənaətbəxş hesab etdikdə onu vəzifədən azad edərək İdarə Heyətinin yeni üzvü təsdiq edilənədək müvafiq vəzifənin icrası üçün qanunvericiliyin tələblərinə cavab verən digər şəxsi müvəqqəti seçmək, bu məsələni Səhmdarların Ümumi Yığıncağının iclasının gündəliyinə daxil etmək və müzakirə etmək;

8.2.11.15. Audit Komitəsinin və Riskləri İdarəetmə Komitəsinin əsasnaməsini təsdiq etmək, onların üzvlərini və üzvlər sırasından komitənin sədrini təyin etmək və bununla bağlı digər məsələlər barədə qərar vermək;

8.2.11.16. Öz üzvləri arasında, öz üzvləri ilə İdarə Heyətinin üzvləri arasında, həmçinin İdarə Heyətinin üzvlərinin öz aralarında baş verən mənafe toqquşmalarının tənzimlənməsi üzrə qaydalar müəyyənləşdirmək və təsdiq etmək;

8.2.11.17. Cəmiyyətin maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyən etmək;

8.2.11.18. Cəmiyyətin strateji baxışını müəyyən etmək və bu əsasda strateji planlaşdırma dövrü üçün missiya bəyanatını hazırlamaq, strateji baxış və missiya bəyanatını Səhmdarların Ümumi Yığıncağı ilə razılaşdırmaqla təsdiq etmək;

8.2.11.19. Strateji baxış və missiya bəyanatı əsasında əsasında hazırlanmış, azı 3 illik dövrü əhatə edən Cəmiyyətin strateji planı təsdiq etmək;

8.2.11.20. Standartlarla müəyyən edilən prinsipləri özündə ehtiva edən mükafatlandırma siyasətini təsdiq etmək, mükafatlandırma prosesinə nəzarəti həyata keçirmək, xüsusi kateqoriyaya və digər kateqoriyalara aid olan işçilərin mükafatlandırılması üzrə qərarı təsdiq etmək, eləcə də xüsusi kateqoriyaya aid olan işçilər üzrə ƏFG-lərin icrası da daxil olmaqla azı ildə bir dəfə Riskləri İdarəetmə Komitəsinin rəyini nəzərə alaraq mükafatlandırma sisteminin səmərəliliyini qiymətləndirmək;

8.2.11.21. İldə azı bir dəfə olmaqla İdarə Heyəti tərəfindən sığortaçının korporativ idarəetmə sisteminin effektivliyinin təmin edilməsini, eləcə də nəzarət funksiyalarının məsul şəxslərinin və nəzarət funksiyalarını həyata keçirən struktur bölmələrin fəaliyyətinin effektivliyini qiymətləndirmək;

8.2.11.22. Qanunvericiliyin tələbləri nəzərə alınmaqla, filial, nümayəndəlik və xidmət mərkəzlərinin açılması və ya ləğvi barədə qərarlar qəbul etmək, onların əsasnamələrini təsdiq etmək;

8.2.11.23. Qanunvericiliyin tələbləri nəzərə alınmaqla, Cəmiyyətin müstəqil auditorunu seçmək və təyinatını geri götürmək;

8.2.11.24. Cəmiyyətin daxili nəzarət sistemini təşkil edən qayda və prosedurları aşağıdakı prinsiplər əsasında təsdiq etmək:

8.2.11.24.1. Cəmiyyətin fəaliyyətinin Direktorlar Şurasının müəyyən etdiyi strategiyaya və qaydalara uyğun həyata keçirilməsi;

8.2.11.24.2. Sığorta əməliyyatlarının yalnız lisenziyaya müvafiq qaydada aparılması;

8.2.11.24.3. Cəmiyyətin aktivlərinin təhlükəsizliyinin təmin edilməsi;

8.2.11.24.4. Verilən məlumatların mühasibat uçotunda tam, dəqiq, dürüst, yoxlanıla bilən formada və vaxtında əks etdirilməsi;

8.2.11.24.5. Rəhbər işçilərin sahibkarlıq risklərini müəyyən etmək, qiymətləndirmək, tənzimləmək, belə risklər üçün kapitalın müvafiq səviyyəsini saxlamaq bacarığına malik olması;

8.2.11.24.6. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanunlarının tələblərinə əməl edilməsi.

8.2.11.25. Cəmiyyətin kapital ehtiyatlarının formalaşdırılması haqqında qərar qəbul etmək, həmin qərarları Səhmdarların Ümumi Yığıncağının iclasının gündəliyinə daxil etmək və onları müzakirə etmək;

8.2.11.26. Cəmiyyətin Nizamnaməsində və Qanunvericilikdə nəzərdə tutulmuş hallarda Cəmiyyətin adından müvafiq əqdlərin bağlanmasına icazə vermək;

8.2.11.27. Cəmiyyətin fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin daxili yoxlanması barədə qərar qəbul etmək;

8.2.11.28. Müstəqil və ya daxili auditorların, habelə müvafiq tənzimləyici və nəzarət qurumlarının yoxlamalarının nəticələrinə baxmaq, bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;

8.2.11.29. Cəmiyyətin təşkilati strukturunu təsdiq etmək.

8.2.12. **Direktorlar Şurasının digər səlahiyyətlərinə aşağıdakılar aiddir:**

8.2.12.1. İdarə Heyəti tərəfindən Səhmdarların Ümumi Yığıncağına təqdim edilmiş məsələlərə razılıq vermək;

8.2.12.2. Cəmiyyətin biznes strategiyasını, o cümlədən Cəmiyyət üçün müəyyənləşdirilmiş Əsas Fəaliyyət Göstəricilərini (ƏFG) təyin etmək, həmçinin biznes strategiyasından kənarlaşmalara dair qərar qəbul etmək;

8.2.12.3. Cəmiyyətin İdarə Heyətinin üzvlərinə tətbiq edilən imtiyazlar barədə qaydaları təsdiq etmək;

8.2.12.4. Səhmdarların Ümumi Yığıncağına dividendlər və onların ödənilməsi qaydası barədə tövsiyələr vermək, dividendlərin hesablanılması və ödənilməsi barədə qaydalar, siyasətlər va başqa oxşar sənədləri təsdiq etmək;

8.2.12.5. Sığorta ehtiyatlarının formalaşdırılması və sığorta fəaliyyətinin davamlılığı ilə əlaqəli sənədləri təsdiq etmək;

8.2.12.6. Cəmiyyətin büdcəsi və maliyyə hesabatlarının tərtib və təqdim olunması üzrə prosedur və başqa oxşar sənədləri təsdiq etmək;

8.2.12.7. Cəmiyyətin büdcə layihəsini müzakirə etmək və Səhmdarların Ümumi Yığıncağının təsdiqinə təqdim olunması barədə qərar qəbul etmək;

8.2.12.8. Cəmiyyətin təhlükəsizlik siyasətləri, həmçinin inkişaf, tarif və mənafe toqquşması siyasətlərini təsdiq etmək;

8.2.12.9. Cəmiyyətin müxtəlif sahələri ilə bağlı dövri qaydada hesabatlar qəbul etmək;

8.2.12.10. Solvency II tənzimləmələri çərçivəsində həyata keçirilən testlərin nəticələri üzrə hesabatı nəzərdən keçirmək;

8.2.12.11. Cəmiyyətin fəaliyyəti ilə bağlı satınalma üzrə səlahiyyət bölgüsü və başqa bu kimi limitləri, siyasətləri, başqa oxşar sənədləri təsdiq etmək;

8.2.12.12. Korrupsiya, dələduzluq və digər qanunsuz halların qarşısının alınması üzrə olan siyasətləri təsdiq etmək;

8.2.12.13. Bu Nizamnamənin 8.2.13.3-cü bəndində nəzərdə tutulan təlimat ilə və ya digər daxili normativ sənədlər (qərarlar) ilə müəyyən olunan qaydada və səlahiyyətlər çərçivəsində Cəmiyyətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən aidiyyəti (əlaqəli) şəxslərlə imzalanacaq əqdləri təsdiq etmək;

8.2.12.14. Qanunvericilik, Standartlar, həmçinin bu Nizamnamə, Səhmdarların Ümumi Yığıncağının qərarları, Direktorlar Şurasının Əsasnaməsi və Cəmiyyətin digər daxili sənədləri ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

8.2.13. **Direktorlar Şurasının vəzifələri aşağıdakılardır:**

8.2.13.1. Öz öhdəliklərini lazımi səviyyədə yerinə yetirməsi üçün Cəmiyyətin maliyyə vəsaitlərinin kifayət qədər saxlanılmasının təmin edilməsinə, sığortalılarla ədalətli rəftar olunmasına, Cəmiyyətin biznesinin və digər əməliyyatlarının idarə olunmasına nəzarət etmək;

8.2.13.2. Cəmiyyətin fəaliyyətinin dürüstlük, səriştəlilik, peşəkarlıq və biznes etikası prinsiplərinə tam uyğun şəkildə idarə edilməsini təmin etmək, onun strateji məqsədlərini və biznes dəyərlərini, habelə maraqlı tərəflərlə qarşılıqlı əlaqə

çərçivəsində həyata keçirilməsini əhatə edən korporativ davranış kodeksi və ya qaydalarını müəyyən etmək;

8.2.13.3. Cəmiyyətin mənafelərinə uyğun gəlməyən halların aradan qaldırılması məqsədi ilə qanunvericiliklə nəzərdə tutulmuş aidiyyəti (əlaqəli) şəxslərlə bağlanan əqdlərin müəyyənləşdirilməsi və araşdırılması üzrə təlimatı təsdiq etmək;

8.2.13.4. Müştərilərlə ədalətli rəftar olunması, o cümlədən onlara müvafiq məlumatların verilməsi, şəxsi məlumatlarının məxfiliyinin qanunvericiliyə uyğun olaraq qorunması, sığorta hadisəsi ilə bağlı zərərlərin vaxtında və ədalətli qiymətləndirilməsi, sığortalıların, sığorta olunanların və faydalanan şəxslərin sığorta tələbləri üzrə sığorta ödənişlərinin mümkün olan ən tez müddət ərzində ödənilməsi, həmçinin sığortalıların və digər müştərilərin şikayətlərinə vaxtında baxılıb həll edilməsi üzrə təlimatları təsdiq etmək;

8.2.13.5. Cəmiyyətin fəaliyyəti ilə bağlı risklərin idarəedilməsi ilə əlaqədar təqdim edilən məsələlər, strateji risklər üzrə qərarlar qəbul etmək, risklərin idarə edilməsi sisteminin effektivliyini ildə bir dəfədən az olmayaraq qiymətləndirmək;

8.2.13.6. Əhəmiyyətli risklərin mütəmadi olaraq müəyyənləşdirilməsi, qiymətləndirilməsi və nəzarətdə saxlanması məqsədi ilə risklərin idarə edilməsinin daxili siyasətini, risk iştahası bəyannaməsini, həmçinin başqa bu kimi qaydalar və digər oxşar sənədləri təsdiq etmək, Cəmiyyətin risk iştahasının və fəaliyyəti ilə bağlı əsas risk limitlərinin müəyyən etmək, risk profilinin davamlı monitorinqini aparmaq;

8.2.13.7. Böyük həcmli itkilərin baş verməsi risklərinin qarşısının alınması və əvvəlcədən nəzərdə tutulan gəlir əldə edilməsi üçün Qanunun VI Fəslinin tələblərinə cavab verən investisiya siyasətini təsdiq etmək;

8.2.13.8. Təkrarsığorta əməliyyatları üzrə siyasəti, o cümlədən təkrarsığortanın etibarlılığını, risklərin bölüşdürülməsinin ümumi səviyyəsini, hər bir risk üzrə şəxsi tutumun və hər bir sığorta hadisəsi üzrə öhdəliyin yuxarı həddini və təkrarsığortanın Cəmiyyət üçün məqbul hesab edilən digər meyarlarını təsdiq etmək;

8.2.13.9. Cəmiyyətin Nizamnamənin siyasət, strategiya və təlimatlara ciddi riayət etməsinə, şəraitin dəyişməsi nəzərə alınmaqla, bu sənədlərə mütəmadi qaydada yenidən baxılmasına daimi nəzarəti həyata keçirmək.

8.2.13.10. Cəmiyyət tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə bu pozuntu barəsində Cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağını, İdarə Heyətini və Audit Komitəsini məlumatlandırmaq, Mərkəzi Bankına isə sığorta qanunvericiliyinin və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinin pozulması faktları barədə bildiriş göndərmək;

8.2.13.11. Qanunvericilik, Standartlar, həmçinin bu Nizamnamə, Səhmdarların Ümumi Yığıncağının qərarları, Direktorlar Şurasının Əsasnaməsi və Cəmiyyətin digər daxili sənədləri ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

8.2.14. **Direktorlar Şurası sədri aşağıdakı vəzifə və səlahiyyətlərə malikdir:**

8.2.14.1. Cəmiyyət adından İdarə Heyətinin sədri və digər üzvləri, tələb olunduqda isə Şuranın üzvləri ilə əmək və ya xidməti müqavilələri bağlamaq, onların vəzifə təlimatlarını təsdiq etmək;

8.2.14.2. Şuranın gündəliyini müəyyən edərkən Şura üzvlərinin müraciətlərini və rəylərini nəzərə almaq;

8.2.14.3. Cəmiyyətin cari fəaliyyəti haqqında Şura üzvlərinin vaxtında, dəqiq və aydın məlumat almasını təmin etmək;

8.2.14.4. Kritik məsələlərin müzakirə edilməsi və müvafiq qərarların qəbul edilməsi üçün kifayət qədər vaxtın ayrılmasını təmin etmək;

8.2.14.5. Şuranın fəaliyyətinin ildə azı 1 (bir) dəfə qiymətləndirilməsini təmin etmək;

8.2.14.6. Səhmdarlarla effektiv kommunikasiyanın qurulmasını təmin etmək;
8.2.14.7. Şuranın işini təşkil etmək, iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək;
8.2.14.8. Səhmdarların Ümumi Yığıncağının və Şuranın qərarlarının icrasına Şura adından nəzarət etmək;
8.2.14.9. Zərurət yarandıqda Şura tərəfindən qəbul olunan qərarlar barədə Cəmiyyətin səhmdarlarının məlumatlandırılması üçün tədbirlər görmək;
8.2.14.10. Səhmdarların Ümumi Yığıncağı tərəfindən verilən və Cəmiyyətdaxili normativ sənədlərlə təsdiqlənmiş digər səlahiyyətlər çərçivəsində qərarlar qəbul etmək.

8.2.15. Qanunvericiliyin tələbləri nəzərə alınmaqla, Direktorlar Şurası bu Nizamnamə və Səhmdarların Ümumi Yığıncağının qərarı ilə ona həvalə edilmiş səlahiyyətləri İdarə Heyətinə ötürə bilər. Bu Nizamnamə ilə Direktorlar şurasının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən İdarə Heyətinə verilə bilməz.
8.2.16. Qanunvericiliyin tələbləri nəzərə alınmaqla, Direktorlar Şurası Qanunvericilik və bu Nizamnamə ilə Cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağının səlahiyyətlərinə aid edilməmiş istənilən məsələni müzakirə edə və qərarlar qəbul edə bilər.

8.3. **<u>İdarə Heyəti</u>**

8.3.1. Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik və onun işlərinin aparılması onun kollegial icra orqanı olan İdarə Heyəti tərəfindən həyata keçirilir. İdarə Heyəti sığortaçının fəaliyyətinin effektiv və səmərəli idarə olunmasını, maliyyə nəzarəti sisteminin maliyyə idarəetməsi və hesabatlılıq tələblərinə uyğun olmasını, sığortaçının büdcəsinin səmərəli istifadəsini, qanunvericiliyin tələblərinə uyğun olaraq dövlət orqanlarına (qurumlarına) hesabatların təqdim edilməsini və onların düzgünlüyünü təmin etməlidir.
8.3.2. İdarə Heyətinin səlahiyyətlərinə Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Standartlar, Azərbaycan Respublikasının qüvvədə olan digər qanunvericilik aktları və bu Nizamnamə ilə digər idarəetmə orqanlarının səlahiyyətlərinə aid edilməmiş bütün məsələlər daxildir.
8.3.3. Bu Nizamnamənin 8.2.13.3-cü bəndində nəzərdə tutulan təlimat ilə və ya digər daxili normativ sənədlər (qərarlar) ilə səlahiyyət verildikdə Cəmiyyətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən aidiyyəti (əlaqəli) şəxslərlə bağlanması nəzərdə tutulan müvafiq əqdlər belə daxili normativ sənədlərdə (qərarlarda) müəyyən olunan qaydada və səlahiyyətlər çərçivəsində İdarə Heyətinin qərarı ilə bağlanılır.
8.3.4. İdarə Heyəti 3 (üç) nəfərdən az olmayan tək sayda fiziki şəxs olan üzvlərdən ibarətdir.
8.3.5. İdarə Heyətinin üzvləri Direktorlar Şurası tərəfindən 3 (üç) il müddətinə seçilir. Onlar növbəti müddətə yenidən seçilə bilərlər.
8.3.6. Cəmiyyətin səhmlərinin 20 (iyirmi) və daha çox faizinə malik olan səhmdar Cəmiyyətin İdarə Heyətinin üzvü seçilə bilməz.
8.3.7. Digər hüquqi şəxsdə (qanunvericiliyin tələbləri nəzərə alınmaqla sığortaçının səhmdar olduğu digər sığortaçılarda və hüquqi şəxslərdə Direktorlar Şurasının üzvü olması halları istisna olmaqla) vəzifə tutan şəxs Cəmiyyətin İdarə Heyətinin üzvü ola bilməz. Cəmiyyətin İdarə Heyətinin üzvü digər hüquqi şəxsdə vəzifəyə təyin olunduqda İdarə Heyətinin üzvü vəzifəsindən azad edilir.
8.3.8. İdarə Heyətinin üzvləri sırasından İdarə Heyətinin sədri və onun bir yaxud bir neçə müavini seçilir.
8.3.9. İdarə Heyətinin iclasları ən azı ayda bir dəfə İdarə Heyətinin sədri tərəfindən çağırılır.
8.3.10. İdarə Heyətinin iclası üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin sədri iclasda iştirak edə bilmədikdə İdarə Heyətinin üzvləri iclasa sədrlik etmək üçün üzvləri arasından sədrin vəzifəsini icra edən şəxsi seçirlər.
8.3.11. İdarə Heyətinin qərarları iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər bölündükdə İdarə Heyəti sədrinin səsi həlledici sayılır.

8.3.12. İdarə Heyəti fəaliyyətini qanunvericiliyə, Standartlara, Direktorlar Şurası tərəfindən işlənib hazırlanan biznes strategiyasına, həmçinin Nizamnaməyə uyğun Direktorlar Şurası tərəfindən təsdiq edilən və Cəmiyyətin daxili nəzarət sistemini təşkil edən qayda və prosedurlara uyğun olaraq həyata keçirir.

8.3.13. İdarə Heyətinin bütün iclasları protokollaşdırılır, protokollar müvafiq olaraq təsdiq edilir və hər il üzrə uçotu aparılır.

8.3.14. Cəmiyyətin səhmdarları və ya onların səlahiyyətli nümayəndələri İdarə Heyətinin iclaslarının protokolları ilə tanış ola bilərlər.

8.3.15. İdarə Heyəti öz fəaliyyəti barədə Səhmdarların Ümumi Yığıncağına, Direktorlar Şurasına, onun yanında fəaliyyət göstərən komitələrə və ekspert qruplarına hesabat verir.

8.3.16. İdarə Heyəti Səhmdarların Ümumi Yığıncağına təqdim etdiyi məsələləri Direktorlar Şurası ilə razılaşdırmalıdır.

8.3.17. İdarə Heyəti üzvlərinin şəxsi marağı ilə Cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllədə nəzərdə tutulmuş digər hallarda İdarə Heyətinin sədri və ya digər üzvləri müvafiq məlumatı Cəmiyyətin Direktorlar Şurasına yazılı şəkildə təqdim etməlidirlər.

8.3.18. Cəmiyyətdə idarəetmənin effektivliyini artırmaq, investisiyaların idarəedilməsində səmərəliyi yüksəltmək və risklərə nəzarəti gücləndirmək məqsədilə İdarə Heyəti öz yanında fəaliyyət göstərən daxili komitələr yarada bilər.

8.3.19. Hazırkı Nizamnamədə qeyd edilməyən, İdarə Heyətinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bütün digər məsələlər müfəssəl şəkildə onun əsasnaməsi ilə müəyyən edilir və tənzimlənir.

8.3.20. **İdarə Heyəti sədrinin vəzifə və səlahiyyətləri aşağıdakılardır:**

8.3.20.1. Cəmiyyətin cari fəaliyyətini idarə etmək, korporativ idarəetmə mexanizmlərinin təşkili və istifadəsi yolu ilə Cəmiyyətə operativ rəhbərliyi təmin etmək;

8.3.20.2. Səlahiyyətləri daxilində Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərar qəbul etmək və əmrlər (sərəncamlar) vermək;

8.3.20.3. İdarə Heyətinin işini təşkil etmək, iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək;

8.3.20.4. Etibarnamə olmadan Cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsində çıxış etmək, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil etmək;

8.3.20.5. Cəmiyyətin adından bütün növ müqavilələr (o cümlədən Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən xüsusi əhəmiyyətli əqdləri) bağlamaq, etibarnamələr vermək (o cümlədən başqasına etibar etmək hüququ ilə), banklarda Cəmiyyətin cari və başqa bank hesablarını açmaq və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparmaq;

8.3.20.6. Cəmiyyətin daxili əmək intizamı qaydalarının, Səhmdarların Ümumi Yığıncağı, Direktorlar Şurası və onun tərəfindən yaradılmış komitələr tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin etmək;

8.3.20.7. Daxili və xarici yazışmalarda Cəmiyyət adından gedən məktub və hesabatları imzalamaq;

8.3.20.8. Rəhbər işçilər və daxili auditorlar istisna olmaqla, Cəmiyyətin işçilərini işə qəbul edib işdən azad etmək, onların vəzifə təlimatlarını (əmək funksiyasını) təsdiq etmək, işçilərə həvəsləndirmə tədbirləri tətbiq etmək, Cəmiyyətin daxili əmək intizamı qaydalarına və qanunvericiliyə müvafiq olaraq onları intizam məsuliyyətinə cəlb etmək;

8.3.20.9. Cəmiyyətin işçilərinə intizam tənbehi vermək səlahiyyətini özünün əmri (sərəncamı, qərarı, etibarnaməsi) ilə Cəmiyyətdə vəzifə tutan digər şəxs(lər)ə həvalə etmək;

8.3.20.10. Cəmiyyətin işçi heyətinin təlim alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlamaq və təsdiq etmək;

8.3.20.11. Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirmək.

8.3.21. İdarə Heyətinin əsasnaməsinə əsasən İdarə Heyəti, həmçinin onun sədri və üzvləri digər səlahiyyət və vəzifələri həyata keçirə bilər.

8.3.22. Səhmdarların Ümumi Yığıncağının və Direktorlar Şurasının qərarı ilə İdarə Heyətinin səlahiyyətləri artırıla, azaldıla və ya məhdudlaşdırıla bilər.

8.3.23. Qanunvericiliyin, Standartların, Nizamnamənin və Cəmiyyətin daxili sənədlərinin tələbləri nəzərə alınmaqla, İdarə Heyəti, eləcə də İdarə Heyətinin sədri və üzvləri onlara aid olan vəzifə və ya səlahiyyətləri müvafiq olaraq Cəmiyyətin İdarə Heyətinə, İdarə Heyətinin sədri və ya üzvlərinə, başqa işçilərinə və ya İdarə Heyəti yanında fəaliyyət göstərən daxili komitələrə ötürə bilər. Bu bəndin tələbləri üçün İdarə Heyətinin sədri və üzvləri tərəfindən ötürülə bilən səlahiyyətlərə sədrin və ya üzvlərin kollegial idarəetmədə iştirak etmə/qərarvermədən irəli gələn vəzifə və səlahiyyətləri aid edilmir.

8.4. **<u>Audit Komitəsi</u>**

8.4.1. Audit Komitəsi Cəmiyyətin daxili audit siyasətinin və strategiyasının hazırlanmasını, həyata keçirilməsini və auditor nəzarətini təşkil etmək məqsədi ilə 3 (üç) fiziki şəxsdən az olmayan tərkibdə yaradılır.

8.4.2. Direktorlar Şurası tərəfindən Audit Komitəsinin üzvləri seçilir. Direktorlar Şurası Audit Komitəsinin üzvlərindən birini Audit Komitəsinin sədri təyin edir. Audit Komitəsinin sədrinin səlahiyyətləri Cəmiyyətin Nizamnaməsi və Audit Komitəsi haqqında əsasnamə ilə müəyyən edilir.

8.4.3. Audit Komitəsinin üzvlərindən ən azı biri müstəqil şəxs, yəni Cəmiyyətin və ya onunla aidiyyəti (əlaqəli) şəxsin idarəetmə orqanının üzvü olmayan, həmçinin özü və ya arvadı (əri) Cəmiyyətin və ya onunla aidiyyəti (əlaqəli) şəxsin hər hansı səhminə malik olmayan şəxs olmalıdır.

8.4.4. Cəmiyyətin səhmdarları və İdarə Heyətinin üzvləri onun Audit Komitəsinin üzvü ola bilməz. Sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, Cəmiyyətin Direktorlar Şurasının üzvü (Cəmiyyətin səhmdarı olan Direktorlar Şurasının üzvü istisna olmaqla) Audit Komitəsinin üzvü ola bilər.

8.4.5. Audit Komitəsinin iclasları üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

8.4.6. Audit Komitəsinin qərarları iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər bölündükdə Audit Komitəsinin sədrinin səsi həlledici sayılır.

8.4.7. Audit Komitəsi Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət və illik hesabatlar və balanslar əsasında rəy tərtib edir. Audit Komitəsinin rəyi olmadan Səhmdarların Ümumi Yığıncağı illik balansı təsdiq edə bilməz.

8.4.8. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin təftişi təsərrüfat ili başa çatdıqda Cəmiyyətin Audit Komitəsinin təşəbbüsü ilə Səhmdarların Ümumi Yığıncağının və ya Direktorlar Şurasının qərarı ilə və ya Cəmiyyətin səsli səhmlərinin on faizindən artıq hissəsinə malik olan səhmdarların və İdarə Heyətinin tələbi ilə və bu Nizamnamədə nəzərdə tutulan digər hallarda həyata keçirilir.

8.4.9. Cəmiyyətin Audit Komitəsinin tələbi ilə Cəmiyyətin bütün orqanları və vəzifəli şəxsləri Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan sənədləri təqdim etməlidirlər.

8.4.10. Hazırkı Nizamnamədə qeyd edilməyən, Audit Komitəsinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bütün digər məsələlər müfəssəl şəkildə onun əsasnaməsi ilə müəyyən edilir və tənzimlənir.

8.4.11. **Audit Komitəsinin səlahiyyətləri aşağıdakılardır:**

8.4.11.1. Cəmiyyətin audit strategiyasını və siyasətini müəyyən etmək;

8.4.11.2. Daxili audit planlarını, habelə daxili audit fəaliyyəti ilə bağlı digər metodoloji sənədləri təsdiq etmək;

8.4.11.3. Müstəqil auditorun təyin edilməsi ilə əlaqədar Cəmiyyətin səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək;
8.4.11.4. Səhmdarların Ümumi Yığıncağına və Direktorlar Şurasına daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair təkliflər vermək;
8.4.11.5. Daxili audit xidmətinin fəaliyyətinə nəzarət etmək;
8.4.11.6. Səlahiyyətlərinə aid olan məsələlər üzrə Direktorlar Şurasının və İdarə Heyətinin iclaslarının çağırılmasını tələb etmək, Daxili audit xidmətinin iclasını çağırmaq;
8.4.11.7. Qanunvericilikdə və Audit Komitəsinin Əsasnaməsində nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

8.4.12. **Audit Komitəsinin vəzifələri aşağıdakılardır:**
8.4.12.1. Cəmiyyətin maliyyə vəziyyətinə mənfi təsir göstərmək ehtimalı olan əməliyyatlara və ya şəraitə nəzarət etmək;
8.4.12.2. İllik maliyyə nəticələrini müzakirə etmək üçün müstəqil auditorla görüşlər keçirmək;
8.4.12.3. Cəmiyyətin rəhbər işçilərinin müstəqil auditorla birgə işini təşkil etmək, müstəqil auditorun aşkarladığı çatışmazlıqların aradan qaldırılması və tövsiyələrinin tətbiqi üçün tədbirlər görmək;
8.4.12.4. Cəmiyyətin idarəetmə orqanlarının müstəqil auditorlarla, səlahiyyətli dövlət orqanları, o cümlədən müvafiq tənzimləyici və nəzarət qurumları ilə əməkdaşlığını təmin etmək;
8.4.12.5. Cəmiyyətin daxili nəzarət sisteminin səmərəliliyini İdarə Heyəti ilə müzakirə etmək;
8.4.12.6. Cəmiyyətin maliyyə hesabatlarına, o cümlədən illik balansına baxmaq, müvafiq irad və tövsiyələrini Direktorlar Şurasına bildirmək;
8.4.12.7. Direktorlar Şurasının təqdimatı əsasında aidiyyəti (əlaqəli) şəxslərlə bağlanmasına qanunvericiliklə icazə verilən əqdlərə rəsmiləşdirilməzdən əvvəl baxmaq və əqdin qanunvericiliyin tələblərinə və Cəmiyyətin maraqlarına uyğunluğu barədə rəy bildirmək;
8.4.12.8. Qanunvericilikdə və Direktorlar Şurası tərəfindən təsdiq olunan Audit Komitəsinin Əsasnaməsində nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

8.4.13. **Audit Komitəsi sədrinin vəzifə və səlahiyyətləri aşağıdakılardır:**
8.4.13.1. Qanunvericilik tələblərinə uyğun tezlikdə komitə iclaslarının keçirilməsini təmin etmək, iclasların gündəliyinə dair təkliflər vermək və iclas zamanı gündəlikdə duran məsələlərin müzakirəsini təşkil etmək.
8.4.13.2. Qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifə və səlahiyyətləri həyata keçirmək.

## *9. DAXİLİ AUDİT XİDMƏTİ*

9.1. Daxili audit xidməti İdarə Heyəti ilə birlikdə Cəmiyyətin daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyətinə nəzarəti həyata keçirir. Daxili audit funksiyası (departament, şöbə, bölmə və ya daxili auditor) sığortaçının fəaliyyətinin dayanıqlığının və onun nüfuzunun qorunması üçün Direktorlar Şurasına və İdarə Heyətinə sığortaçıların daxili nəzarət və risklərin idarə edilməsi sisteminin keyfiyyəti və effektivliyi ilə bağlı müstəqil dəstək xidmətini təmin edir. Daxili audit xidməti Audit Komitəsinin nəzarəti altında fəaliyyət göstərir.

9.2. Daxili audit xidmətinin rəhbəri Audit Komitəsinin təqdimatı ilə Direktorlar Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunur.

9.3. Hazırkı Nizamnamədə qeyd edilməyən, Daxili audit xidmətinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bütün digər məsələlər müfəssəl şəkildə onun əsasnaməsi ilə müəyyən edilir və tənzimlənir.

## *10. KOMİTƏLƏR VƏ EKSPERT QRUPLARI*

10.1. Cəmiyyətdə idarəetmənin effektivliyini artırmaq və risklərə nəzarəti gücləndirmək məqsədi ilə Direktorlar Şurası öz üzvləri sırasından komitələr təşkil edə və öz səlahiyyətlərinin bir hissəsini onlara həvalə edə bilər.
10.2. Komitələrin tərkibi, funksiya və səlahiyyətləri, qərarlarının qəbul edilməsi qaydası Standartların tələbləri nəzərə alınmaqla onların Direktorlar Şurası tərəfindən təsdiqlənən əsasnamələri ilə müəyyən edilir. Komitələr öz fəaliyyətində İdarə Heyətindən asılı deyil və Direktorlar Şurası qarşısında hesabat verirlər.
10.3. Komitələrin təşkili və onlara müvafiq səlahiyyətlərin həvalə edilməsi Direktorlar Şurasının səlahiyyətlərini və vəzifələrini məhdudlaşdırmır.
10.4. Direktorlar Şurası İdarə Heyəti, Audit Komitəsi və öz üzvlərindən, habelə Cəmiyyətin əməkdaşlarından müvafiq bilik və təcrübəyə malik digər şəxslərdən ibarət tərkibdə ekspert qruplarını təşkil edə bilər.
10.5. Ekspert qrupları Səhmdarların Ümumi Yığıncağı və Direktorlar Şurası tərəfindən birbaşa qərarla və ya hər hansı Cəmiyyətdaxili normativ sənədlə onlara bu səlahiyyət ötürülmədiyi təqdirdə qərar vermək səlahiyyətinə malik olmadan Direktorlar Şurası tərəfindən veriləcək qərarların səmərəli olması üçün təkliflər, tövsiyələr, rəylər vermək məqsədi ilə yaradılır.
10.6. Hazırkı Nizamnamədə qeyd edilməyən, komitələr və ekspert qruplarının fəaliyyətinin tənzimlənməsi ilə bağlı bütün digər məsələlər müfəssəl şəkildə onların əsasnaməsi ilə müəyyən edilir və tənzimlənir.

## *11. CƏMİYYƏTİN MƏNFƏƏTİNİN BÖLÜŞDÜRÜLMƏSİ*

11.1. Cəmiyyətin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və bu Nizamnamə ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Xalis mənfəətin Cəmiyyətin maliyyə ili üzrə bölüşdürülməsi Səhmdarların Ümumi Yığıncağının qərarı ilə qəbul edilir.
11.2. Cəmiyyət dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər. Cəmiyyətin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır və 30 (otuz) gün müddətində icra edilir. Səhmdarların tərkibinin dəyişməsi dividendlərin ödənilməsi barədə qərarın Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş müddətdə və qaydada icra olunmasına təsir etmir.
11.3. Adi səhm üzrə dividend Cəmiyyətin xalis mənfəətinin səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülmüş hissəsidir.
11.4. Dividendlər və onların ödənilməsi qaydası haqqında qərar Cəmiyyətin Direktorlar Şurasının təklifi ilə Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilir.
11.5. Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.
11.6. Əgər Cəmiyyətin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, Cəmiyyət dividendləri elan edə və ödəyə bilməz.

## *12. CƏMİYYƏTİN HESABATLARI*

12.1. Cəmiyyətin maliyyə ili 01 yanvar tarixindən 31 dekabr tarixinədəkdir.
12.2. Cəmiyyət Mərkəzi Bank tərəfindən müəyyən olunan formada, məzmunda və qaydada öz fəaliyyəti barədə hesabatları Mərkəzi Banka təqdim edir.
12.3. Cəmiyyət maliyyə ilinin bitməsindən ən geci üç ay müddətində müstəqil auditor tərəfindən yoxlanılmış illik maliyyə hesabatlarını, ən geci altı ay müddətində isə müstəqil auditor tərəfindən yoxlanılmış birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə Mərkəzi Banka təqdim etməli, özünün rəsmi internet səhifəsində dərc etdirməli və bu barədə məlumatı Mərkəzi Banka təqdim etməlidir. İllik maliyyə hesabatları çap mediasında da dərc etdirilə bilər.
12.4. Cəmiyyət illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının surətini auditor rəyi ilə birlikdə hər hansı şəxsə onun müraciəti əsasında pulsuz təqdim edir.

12.5. Cəmiyyət öz fəaliyyətinin nəticələrinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada və formada mühasibat, əməliyyat uçotu, statistik hesabat aparır, balans tərtib edir, mühasibat balansını hamının tanış olması üçün hər il dərc edir və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş bütün vergiləri ödəyir.

12.6. Cəmiyyət Nizamnaməsində edilən dəyişikliklərin hüquqi şəxslərin dövlət reyestrində qeydiyyata alınması barədə müvafiq sənədləri onları aldıqdan 5 (beş) iş günü müddətində müvafiq tənzimləyici və nəzarət qurumlarına təqdim etməli, habelə rəhbər işçilərin vəzifədən kənarlaşdırılması, işdən çıxarılması və ya daimi fəaliyyət göstərən orqanının yerləşdiyi ünvanının dəyişməsi barədə müvafiq qərar qəbul edildiyi tarixdən 3 (üç) iş günü müddətində, filial və ya nümayəndəliyinin açılması, onların fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi haqqında qərar qəbul etdiyi tarixdən isə 7 (yeddi) iş günü müddətində bu barədə həmin orqana yazılı məlumat verməlidir.

## *13. CƏMİYYƏTİN KOMMERSİYA SİRRİ*

13.1. Cəmiyyətin kommersiya sirri dedikdə, yayılması (ötürülməsi, itirilməsi) Cəmiyyətə ziyan gətirə bilən istehsal, texniki məlumat, idarəolunma, maliyyə və digər fəaliyyət ilə əlaqədar olan qeyri-dövlət sirləri başa düşülür.

13.2. Cəmiyyətin səhmdarı, rəhbər işçiləri, əmək kollektivinin üzvləri Cəmiyyətin bütün fəaliyyəti dövründə, onun fəaliyyətinin dayandırılmasından və ləğvindən sonra kommersiya sirrini təşkil edən məlumatları açıqlamaq hüququna malik deyildirlər. Əks təqdirdə onlar Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyətə cəlb oluna bilərlər.

## *14. CƏMİYYƏTİN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞVİ*

14.1. Cəmiyyət Səhmdarlarının Ümumi Yığıncağının qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər. Cəmiyyət yalnız sığortaçı olan digər hüquqi şəxslə (şəxslərlə) birləşə bilər. Belə birləşmənin həyata keçirilməsi üçün müvafiq tənzimləyici və nəzarət qurumlarının razılığı tələb olunur.

14.2. Cəmiyyətin yenidən təşkilinin və ləğvinin başqa əsasları və qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilir.

## *15. XÜSUSİ ƏHƏMİYYƏTLİ ƏQDİN BAĞLANMASI BARƏDƏ QƏRARIN AÇIQLANMASI QAYDASI*

15.1. Xüsusi əhəmiyyətli əqdin bağlanması barədə qərarın qəbul edildiyi tarixdən etibarən 7 iş günü ərzində bu barədə məlumat Cəmiyyətin rəsmi internet səhifəsində yerləşdirilməlidir.

15.2. Xüsusi əhəmiyyətli əqdin bağlanması barədə qərarın dərci zamanı Cəmiyyət illik maliyyə hesabatlarının yoxlanılması üçün müstəqil auditoru cəlb edir. Nizamnamə kapitalında məcmu payı on faiz və ya daha çox olan səhmdarların tələbi ilə səhmdar cəmiyyətinin fəaliyyətinin auditor yoxlanışı hər bir vaxt keçirilməlidir.

## *16. DİGƏR ŞƏRTLƏR*

16.1. Nizamnamə və ona edilmiş əlavə və dəyişikliklər dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir.

16.2. Nizamnamənin tələblərinə riayət edilməsi Cəmiyyətin bütün orqanları, vəzifəli şəxsləri və səhmdarları üçün məcburidir.

16.3. Nizamnamə ilə tənzimlənməyən digər məsələlər Səhmdarların Ümumi Yığıncağının qərarları, Direktorlar Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin əsasnamələri, həmçinin Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə tənzimlənir.

16.4. Nizamnamənin müddəaları ilə Azərbaycan Respublikasının qanunvericiliyi arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikası qanunvericiliyinin müddəaları tətbiq edilir.

16.5. Azərbaycan Respublikasının qanunvericiliyinə dəyişiklik edilməsi nəticəsində bu Nizamnamənin hər hansı müddəası ilə qanunvericilik arasında ziddiyyət yaranarsa, həmin müddəa qüvvədən düşmüş hesab edilir.